# GÜNDOĞAR



Qəzet 1931 - ci ildən çap edilir | NEFTÇALA RAYON QƏZETİ | 27 DEKABR 2024 - cü il, № 12 (68074)


## Prezident İlham Əliyev: “Azərbaycanın namizədliyinə dəstək bu ölkələrlə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir!”





Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

İLHAM ƏLİYEV

## 2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edildi

**“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsinin Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən qəzaya uğraması nəticəsində həlak olanların xatirəsini yad etmək məqsədilə Azərbaycan Respublikasında matəm elan edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**
25 dekabr 2024, 15:35

**2024-cü il dekabrın 25-də Bakı–Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı olmuşdur.**

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qəza nəticəsində həlak olanların ailələrinin kədərinə şərik olaraq qərara alıram:**
**2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edilsin.**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2024-cü il**

➡ 4

**Bu gün Azərbaycan cəmiyyəti indiyə qədər görünməmiş böyük sürətlə inkişaf edir. Belə şəraitdə Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa uyğun olaraq insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması prosesi Prezident İlham Əliyev tərəfindən yeni çağırışlar fonunda, yeni keyfiyyətdə ardıcıl surətdə davam etdirilməkdədir.**



**Azərbaycan tarixinin ən parlaq səhifəsində, qətiyyəti, zəkası, ən vacibi vətən sevgisi ilə unudulmaz izlər yazan böyük şəxsiyyət, Ulu Öndər! Ruhun şad olsun!**



## *12 dekabr - Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edildi.*

➡ 3

## Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin dekabrın 24-də 2024 - ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışından:

“... Bizim bundan sonrakı fəaliyyətimiz təbii ki, idmanın inkişafı ilə bağlı olacaq. Çünki bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Ümid edirəm ki, bizim həm ənənəvi medal gətirən idman növlərində, həm də bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur, müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində. Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik. Ondan sonra İslam Həmrəylik Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçirilmişdir...

**2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.**

...Bölgələrdə isə dediyim kimi, bundan sonra da bu işlər aparılacaq. O ki qaldı, azad edilmiş ərazilərə, siz yaxşı bilirsiniz ki, o ərazilərdə infrastruktur layihələri ilə yanaşı, keçmiş köçkünlərin yaşayışı üçün inşa edilən evlərlə yanaşı, idman infrastrukturu da yaradılır. Bəziləri hesab edə bilər ki, bu, bir az tezdir. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki bu idman obyektlərinin həm rəmzi mənası, həm də funksional tərəfi var. Məsələn, İmarət stadionunun inşa edilməsi - bunun çox böyük rəmzi mənası var. İndi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edilir. Füzuli şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyulub. Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur. Düz bir il bundan əvvəl Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik. Amma bu stadion da bütün beynəlxalq standartlara cavab verəcək və bu stadionun yenidən qurulması prosesi gələn il başa çatmalıdır. Azad edilmiş ərazilərimizdə digər idman qurğularının tikintisi nəzərdə tutulur və bütün bu işləri biz ardıcıllıqla edəcəyik.

Gələn il Azərbaycan növbəti böyük idman yarışına ev sahibliyi edəcək, bu da MDB Oyunlarıdır. Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi.

Gəncə şəhərində isə 7000 iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək üçün əlbəttə ki, şərait yaradılmalıdır və müvafiq göstərişlər verildi. Gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər...”

# 24 DEKABR---AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEVİN AD GÜNÜDUR!




**Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin doğum günüdür. Ölkə başçısı yeni yaşını Müzəffər Ali Baş Komandan, qalib sərkərdə kimi qarşılayır. Prezident İlham Əliyev bütün dünya azərbaycanlılarının Lideri olduğunu onların ən böyük arzusunu həyata keçirməklə təsdiq edib. Eyni zamanda, Prezident İlham Əliyev adını türk dünyası tarixinə Qarabağ həsrətinə son qoyan şəxsiyyət kimi yazdırıb. Azərbaycan xalqı Prezident İlham Əliyevi vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq və dönməzlik rəmzinə çevrilən Lider kimi sevir, dəstəkləyir. Hər kəs Prezident İlham Əliyevi xilaskar Lider və Azərbaycan tarixinin ən qüdrətli sərkərdəsi olaraq qəbul edir.**

**İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. 1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb. 1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil alıb. MDBMİ-ni bitirdikdən sonra, 1982-ci ildə həmin institutun aspiranturasına daxil olub. 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini alıb və 1985-1990 - cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olub. 1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib. 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak edib. 1995 - ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidentidir. 1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilib.**

**2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olub. 2003-cü ilin yanvar ayında isə Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilib. 2003 - cü il avqustun 4-də Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunub. Bununla əlaqədar deputat səlahiyyətlərinə xitam verilib.**

**İlham Əliyev 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilib. Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verib. 2004-cü ildə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomu və medalı ilə təltif edilib. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 faiz səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə isə seçicilərin 84,54 faiz səsini qazanan İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib.**

**2018-ci il aprelin 11-də keçirilən seçkilərdə də İlham Əliyev seçicilərin 86,02 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib. Azərbaycan xalqı sabitliyə, dayanıqlı sosial-iqtisadi inkişafa, tərəqqiyə, müstəqil siyasətə səs verməklə azad və demokratik Azərbaycan Respublikasının xoşbəxt və firavan gələcəyini təmin edib. Azərbaycan bir daha dünyaya nümayiş etdirdi ki, bütün azadlıqların təmin olunduğu müasir, demokratik ölkədir.**

**İnanırıq ki, Cənab Prezidentin düşünülmüş, qətiyyəti siyasəti ilə Azərbaycan qarşıdan gələn illərdə də inkişaf edəcək, dünya miqyasında seçiləcəkdir.**

**"GÜNDOĞAR"**

---

## ƏSAS: Rayon İcra Hakimiyyəti başçısının 13 dekabr 2024- cü il tarixli 184 nömrəli Sərəncamı

---

## NEFTÇALA RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISI APARATINDA 2025 - Cİ İL ÜÇÜN VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| N | Qəbul edən məsul şəxsin vəzifəsi | Soyadı, adı, atasının adı | Qəbul günləri və qəbul saatları | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | I | II | III | IV | V | VI |
| 1 | Rayon İcra Hakimiyyətinin başçısı | Mirhəsən Mirheydər oğlu Seyidov | | | | | 10:00 | |
| 2 | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Şaiq Seyfəddin oğlu Məmmədov | 15:00 | | | | | |
| 3 | Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial - İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Burcalı Əlican oğlu Ağayev | | 15:00 | | | | |
| 4 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Elşən Həsənağa oğlu Əmirov | 15:00 | | | | | |
| 5 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri | Sadiq Bahadur oğlu Abbasov | 15:00 | | | | | |
| 6 | Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri - baş memar vəzifəsini müvəqqəti icra edən | Dilavər Qənbər oğlu Əliyev | | | 15:00 | | | |
| 7 | Rayon İcra Hakimiyyətinin başçısının müavini - İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən şöbə müdirinin müavini - dini qrumlarla işin təşkilatçısı | Vasif Vaqif oğlu Əliyev | | | | 15:00 | | |

**QEYD:**

**1. Milli Qəhrəmanlar və onların ailə üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı vətəndaşlar müraciət etdikdə növbədənkənar qəbul olunurlar.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram gününə düşdükdə qəbul günləri növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu Rayon İcra Hakimiyyətinin internet saytı (www.neftchala-ih.gov.az) və qəbulla bağlı əlaqə telefon nömrələri (02126-42-43, 02126-3-42-57) vasitəsi ilə də əvvəlcədən növbə tutmaqla həyata keçirilir.**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ EHTİRAMLA YAD EDİLDİ







**Ulu öndərin fəaliyyəti dünya siyasət sənətinin xəzinəsinə daxil olmuş, onun adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilmişdir. Ulu öndər Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən bir rəhbər idi. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının formalaşmasına çalışan ümummilli lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çıxarmaq, Azərbaycan mədəniyyətinin zənginliyini bütün dünyaya nümayiş etdirmək üçün həyatını şam kimi əritmişdir. RUHU ŞAD, MƏKANI İŞIQLI OLSUN! EHTİRAMLA YAD EDİRİK!**

**"12 dekabr Ulu öndər Heydər Əliyevin Anım günü" ilə əlaqədar Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, Neftçala RİH-nin məsul şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Neftçala rayon təşkilatının sədri, idarə, müəssisə, təşkilat rəhbərləri və onların kollektivləri, şəhid valideynləri və müharibə iştirakçıları, eləcə də bir qrup ictimaiyyət nümayəndələri Ulu öndər Heydər Əliyevin şəhər mərkəzində ucalan əzəmətli abidəsi önünə gül dəstələri düzmüş, əziz xatirəsini ehtiramla yad ediblər.**

**Sonra anım mərasimi Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan ehsan süfrəsi ilə davam etdirilib.**

**Tədbirdə Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

**Tədbir zamanı Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov çıxış edərək bildirmişdir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan tarixinə öz adını əbədi həkk etmiş nadir şəxsiyyət, qüdrətli siyasi xadim, müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi yazılmışdır. Rayon rəhbəri həmçinin çıxışında qeyd etmişdir ki, ərazi bütövlüyümüzün bərpası, Qarabağın düşmən tapdağından azad olunması Ulu Öndər ideyalarının başlıca qayəsini təşkil edirdi. Cənab Mirhəsən Seyidov çıxışı bildirmişdir ki, bu gün Azərbaycanın tarixinin ən qüdrətli dövrünü yaşayır. Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan cənab İlham Əliyevin məğrur və əzmkar siyasi qətiyyəti sayəsində Ulu Öndərin Azərbaycan xalqı üçün arzuladığı bütün istəklərinin həyata keçdiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.**

**Daha sonra tədbirdə çıxış edən digər natiqlər – qabaqcıl təhsil işçisi, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" medalı ilə təltif olunmuş Ruhəngiz Nəcəfova, Rayon Ağsaqqallar Şurasının üzvü, veteran təhsil işçisi Şakir Bəşirov çıxış edərək Ulu öndər Heydər Əliyevin sarsılmaz, polad iradəsi və qətiyyəti, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən çalışması, fədakar əməyi sayəsində Müasir Azərbaycan dövlətinin bünövrəsinin qoyulduğunu diqqətə çatdırmış, müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, demokratik hüquqi dövlət quruculuğunun inkişafında Ulu öndərin misilsiz xidmətlərini qeyd etmişdir.**

**Ehsan mərasimi Ulu öndərin xatirəsinə ehtiram, milli həmrəylik düşüncələri ilə başa çatmışdır.**

# SƏYYAR GÖRÜŞLƏR RAYONUMUZUN BÜTÜN KƏND VƏ QƏSƏBƏLƏRİNİ ƏHATƏ EDİR







Hər ay olduğu kimi dekabr ayında da Neftçala Rayon İcra Hakimiyyətinin başçısı M. Seyidovun rayonun təyin edilmiş ərazilərində əhali ilə görüşü keçirilmişdir. Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib.

Görüşdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub.

Dekabr ayında səyyar görüşlər Neftçala rayonunun Astanlı, Mirqurbanlı, Abasallı kəndlərində keçirilmişdir.

Səyyar görüşlərdə əhalinin təklif və problemlərinin dinlənilməsi ilə yanaşı müxtəlif mövzularda da məlumat xarakterli çıxışlar olmuşdur. Belə ki, Mirqurbanlı kəndində "Təmiz ekoloji mühit sağlam həyat deməkdir" mövzusunda, Astanlı kəndində "Ulu Öndər Heydər Əliyevin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir" mövzusunda, Abasallı kəndində "Ölkəmizdə ailə modeli milli-mənəvi dəyərlər sistemində formalaşmışdır" mövzusunda görüş iştirakçılarına məlumat verilmiş, istər siyasi anlamda, istərsə də bizi əhatə edən mühitin qorunmasının vacibliyi, ailə dəyərlərinin nəsildən-nəsildən ən qiymətli müqəddəs miras, əmanət kimi qorunaraq ötürülməsi bir daha qeyd edilmişdir.

Görüşdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, Azərbaycanın inkişaf strategiyasının prioritet istiqamətlərindən biri, təbiətin mühafizəsi, ekoloji vəziyyətin yaxşılaşdırılması və vətəndaşların ən yüksək səviyyədə sağlam təbii mühitdə yaşamasını təmin etməkdir. Əsası Ulu Öndər tərəfindən qoyulan "Ətraf mühitin mühafizəsi" strategiyası Ulu Öndər siyasi kursunun layiqli davamçısı, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə "2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan olunması bunun bariz nümunəsi və təsdiqidir. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına, nəticə etibarı ilə ekologiyanın mühafizəsinə dair milli proqramların yerinə yetirildiyi də günümüzün reallığıdır.

Neftçala RİH-in başçısı Neftçala rayonunda görülən yenidənqurma işləri haqqında görüş iştirakçılarına məlumat verib.

Səyyar qəbul zamanı vətəndaşlar daxili yolların təmir olunması, içməli su ilə təmin olunma və digər məsələlər ilə əlaqədar müraciətlərini səsləndiriblər. Vətəndaşların səsləndirdikləri müraciətlər ayrı-ayrılıqda dinlənilib və həllinin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

Məlumat üçün bildiririk ki, vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan "Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.

# ŞUŞAYA NÖVBƏTİ KÖÇ – “BÖYÜK QAYIDIŞ” davam edir!

1992-ci il may ayının 8-də Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunan, nə qədər incidilsə də tarixi yaddaşını unutmayan Mədəniyyət paytaxtımız Şuşa, 2020-ci il noyabrın 8-də Azərbaycan ordusu tərəfindən azad edildi.




Bu qələbə çəmənində çiçəyini, dağında, yamacında şəhid olan oğulların, fədailərin ruhunu sevindirdi. Bütün xalqımız bu yola uğur dilədi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı. Biz 28 illik ayrılıqdan sonra doğma Şuşaya qayıtdıq. Bu qayıdışımızla Şuşaya yeni ruh, yeni nəfəs gəldi. Azadlığına qovuşmuş qədim şəhər artıq böyük quruculuq, təmir-bərpa işlərinin, möhtəşəm tədbirlərin şahidinə çevrilib. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə böyük quruculuq işləri vüsət aldı.Və bu yol –“Böyük Qayıdış” sorağı ilə tariximizin kədər dolu səhifələrinə aydınlıq yazdı. Biz qayıtdıq, doğma ocağımıza, bizsiz solan yurdumuza qayıtdıq.

Bu il Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Şuşa şəhərinə və Laçın rayonunun Sus kəndinə ilk köç karvanı yola salındı. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı mayın 9-da Bakı şəhərinin Qaradağ rayonundan yola çıxdı. İlk mərhələdə Şuşa şəhərinə 20 ailə - 88 nəfər, Laçın rayonunun Sus kəndinə isə 20 ailə, 75 nəfər köçürüldü.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Şuşa şəhəri və Laçın rayon Sus kənd sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

AZƏRTAC xəbər agentliyinin verdiyi məlumatdan aydın olur ki, 8 oktyabr 2024-cü il tarixində Şuşaya yenidən köç davam edib. Buna qədər qeyd edək ki, Sentyabrın 7-də də yenidən Bakı şəhərinin Qaradağ rayonundan da yola salınan köç karvanı artıq Şuşada yerləşmişdir. Bu mərhələdə şəhərə köçürülən 27 nəfərdən ibarət 91 ailəyə mənzillərin açarları təqdim edilib.

“Gündoğar” qəzeti AZƏRTAC - xəbər agentliyinə istinad edərək bildirir ki, bu mərhələdə də Şuşa şəhərinə 16 ailə - 60 nəfər köçürülüb.

Xatırladaq ki, indiyədək Şuşa şəhərində 220 ailənin, yəni 823 nəfərin daimi məskunlaşması təmin edilib. Dekabrın 4-də Şuşaya 48 ailə olmaqla 164 nəfər köçürülüb. Bu barədə Qaçqınların və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsindən bildirilib. 21 dekabr 2024-ci ildə Şuşa şəhərinə növbəti köç karvanı yola salındı. Respublikanın müxtəlif ərazilərində -yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı yenidən ŞUŞA adı ilə yola düşdü. Bu mərhələdə Şuşa şəhərinə 49 ailə, yəni 191 nəfər köçürülüb.

Yurd həsrətinə son qoyulan, öz tarixi yurd yerlərimizə yenidən dönərək doğma ocağına qovuşan bütün soydaşlarımıza can sağlığı, xoşbəxt həyat, sülh ,aydın səma arzu edirik. Bu yolda can fəda edən əziz şəhidlərimizə Allahdan rəhmət diləyir, ruhunuz şad olun deyirik.

Bizə yazırlar:

## TƏŞƏKKÜR MƏKTUBU

**Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Cənab Mirhəsən Seyidova.**

**Hörmətli Mirhəsən müəllim!**

**Sizi qarşıdan gələn yeni - 2025 - ci il münasibətilə ürəkdən təbrik edirəm.**
**Allahdan arzu edirəm ki, 2025 -ci il Sizə düşərli olsun!**
**Sizə uzun ömür, can sağlığı və gələcək işlərinizdə uğurlar arzu edirəm.**
**Yeni il ərəfəsində Sizə bir təşəkkürüm də var.**
**Bunu eyni zamanda bütün Xol zonası sakinləri adından desəm daha doğru olar.**
**Təxminən üç- dörd ay bundan əvvəl Xol Qaraqaşlı kəndində sakinlərlə görüşünüz zamanı kəndimizdə tikilmiş aptek binasının nədənsə hələ də istifadəyə verilməməsi haqqında mən Sizə məlumat vermişdim.**
**Çox sağ olun ki, Sizin köməkliyiniz, diqqətiniz sayəsində aptek artıq istifadəyə verilmişdir.**

**Bütün bu xeyirxah işlərinizə görə sizə, həm kənd sakinləri, həm də öz adımdan təşəkkürümü bildirirəm.**

**İdris Abasov,**
**Xol Qaraqaşlı kənd sakini,**
**təqaüddə olan veteran müəllim.**

**25 dekabr 2024-cü il.**

# 2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edildi






**25 dekabr 2024 –ci ildə Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” tipli sərnişin təyyarəsi qəzaya uğrayıb. Qəza nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Azərbaycan məscidlərində Aktau yaxınlığında AZAL-a məxsus təyyarənin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi yad edilib.**

**Dekabrın 25-də Azərbaycandan Rusiyaya uçan, amma sonradan Qazaxıstanda qəzaya uğrayan təyyarə "oktyabr ayında tam təmirdən çıxıb", texniki nasazlıq olmayıb. Bunu cümə axşamı günü AZAL-ın prezidenti Samir Rzayev jurnalistlərə deyib. Bakı-Qroznı reysi ilə uçan təyyarənin Aktauda qəzaya uğraması nəticəsində 30-dan çox adam vəfat edib, yaralılar var. Ekipaj üzvlərinin bəziləri, o cümlədən pilotlar həlak olub.**

**"Pilotlarımız peşəkar olub, onlar 10 min saatdan çox uçuş ediblər. Ekipaj üzvlərinin peşəkarlığı nəticəsində 29 sərnişin sağ qalıb", - AZAL-ın prezidenti Samir Rzayev vurğulayıb.**

**AZƏRTAC xəbər agentliyi səhər saatlarında yazıb ki, qəzadan sağ çıxmış və vəziyyəti qənaətbəxş olan 7 nəfər adi reyslə, vəziyyəti orta ağır qiymətləndirilən 5 sərnişin isə ayrılmış həkim briqadasının müşayiəti altında Fövqəladə Hallar Nazirliyinin xüsusi təyyarəsi ilə gətirilir.**

**Aktau yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində 29 nəfər qəzadan sağ çıxıb və müalicə olunur, - Bu məlumat Azərbaycan Baş Prokurorluğu və Azərbaycan Hava Yolları (AZAL) ASC-nin çərşənbə günü keçirdiyi birgə brifinqində bildirilib. AZAL-ın məlumatına görə, təyyarədə 62 sərnişin, beş ekipaj üzvü, ümumilikdə 67 nəfər olub.**

**İlkin məlumata görə, təyyarədə 37 Azərbaycan, 6 Qazaxıstan, 3 Qırğızıstan və 16 Rusiya vətəndaşı olub. AZAL-dan BBC-yə verilən məlumata görə, Bakıdan Qroznıya uçan təyyarə "dumanlı hava şəraitinə görə Qroznıya eniş edə bilməyib və Qazaxıstanın Aktau şəhərinə tərəf istiqamətlənib".**

**Aktau yaxınlığında qəzaya uğrayan təyyarənin qara qutusu tapılıb. Qəzada həlak olanlara Allahdan rəhmət diləyirik.**

**Allah hər birinin ailəsinə səbir versin. Yaralı olanlara Allah tezliklə şəfa versin. Amin.**

# 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜDÜR!

Əziz həmvətənlər! Ulu öndər Heydər Əliyevin xalqımızın yaddaşından silinməz izlər qoyan, tariximizi aydınladan dəyərli qərarlarından biri də “31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ”nün təsis edilməsi haqqında qərarıdır. Bu bayram günü- bizi biz edən, kökümüzə bağlayan, ilin dəyişdiyi bir gündə bir daha “KİMLİYİNİ UNUTMA!”- söyləyən vəsiyyət, kökə qayıdış, haray, vəzifə, öyüddür! Bəs onu yaradan şəraitin səbəbi nə idi? - deyə sual edənlərə deyərdim ki, şəraitin necə olmasından asılı olmayaraq xalqımızın Ümummilli Lideri Heydər Əliyevin azərbaycançılıq missiyası, onun hər hansı bir istiqamətdən baxanda dəyişməyən yolu idi. Bu bayram hər il dekabr ayının son gününün “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” kimi qeyd olunması taleyin nəsibi üzündən dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın tarixi Vətənlə - müstəqil Azərbaycanla əlaqələrinin möhkəmlənməsinə, həmçinin onların bir-biriləri ilə sıx ünsiyyət qurmalarına, milli-mənəvi dəyərlərimizin, ənənələrimizin qorunub saxlanılmasına xidmət edir.

Həmrəylik bayramı ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsinə və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana Vətənin inkişafına, onun dünyada layiqli yer tutmasına və tanınmasına, mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünün mənəvi borcu sayır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dekabrın 31-də qeyd olunması təsadüfi deyildir. Ötən əsrin 80-ci illərinin axırlarında keçmiş ittifaq məkanında gedən proseslər Azərbaycanda milli oyanış hərəkatının geniş vüsət almasına gətirib çıxartdı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Dağlıq Qarabağda yaşayan ermənilərin açıq separatçılıq hərəkatı, bu proseslərin Ermənistan və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz yurd-yuvasından qovulması ilə nəticələnməsi “Meydan hərəkatı”nın əsasını qoydu.

Moskvanın və yerli hakimiyyət orqanlarının yarıtmaz siyasəti nəticəsində meydana çıxan bu problemlərin qarşısını almaq təşəbbüsünü üzərinə götürən xalq 1988-ci il noyabrın 17-də Bakının mərkəzi meydanına toplaşaraq fasiləsiz kütləvi etiraz aksiyasına başladı. Həmin günlər göstərdi ki, xalqımız müstəqil olmağa, azad yaşamağa layiqdir. Belə bir vaxtda azərbaycanlıların vətən naminə həmrəyliyinə, birliyinə ehtiyac yarandı. Məhz bu tarix- 31 dekabr Azərbaycanın tarixinə Milli Həmrəylik Günü kimi daxil oldu.

Bu tarixin rəsmiləşdirilməsi isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Milli Həmrəylik və Birlik Gününün təsis olunması barədə qərar qəbul etdi. Bundan cəmi doqquz gün sonra Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası hər il dekabr ayının 31- nin Azərbaycanlıların Həmrəylik Günü elan olunması barədə sərəncam verdi. Beləliklə, bu tarix dünya azərbaycanlılarının hər il sevinclə qeyd etdikləri milli bayrama çevrilmişdir.

**ƏZİZ HƏMVƏTƏNLƏR!**
**Hər birinizi bir daha 31 Dekabr Dünya AZƏRBAYCANLILARININ Həmrəylik Günü” münasibətilə təbrik edir, xalqımızın birliyinin, Vətən ucalığınım əbədi olmasını diləyirik.**

# *Nə? Harada? Nə zaman? intelektual yarışı keçirildi*





17 dekabr 2024-cü il tarixində Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Neftçala rayonu üzrə gənclər və idman sektoru və Şirvan-Salyan Regional Təhsil İdarəsi Neftçala rayon təhsil sektorunun birgə təşkilatçılığı ilə Neftçala rayon ümumtəhsil məktəblərində çalışan müəllimlər arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında rayon birinciliyi keçirilib.Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşı, YAP Neftçala rayon təşkilatının sədri, Neftçala rayon gənclər və idman sektorunun rəhbəri və məsul şəxsləri, Neftçala rayon Təhsil sektorunun müdiri, Neftçala Olimpiya İdman Kompleksinin direktoru, rayon ümumtəhsil məktəblərinin rəhbərləri, müəllimlər iştirak edib. Ümumilikdə 105 nəfər müəllim olmaqla 21 komandanın birincilik uğrunda mübarizə apardığı intellektual yarış hər turda 12 sual olmaqla 3 turda təşkil olunub. Yarışda komandalara ümumi bilik səviyyəsini əhatə edən 36 sual təqdim edilib. Gərgin keçən mübarizənin yekununda Neftçala rayon II Qaralı kənd tam orta məktəbi təmsil edən "Zəfər" komandası I yerdə, Neftçala şəhər N.Gəncəvi adına 3 nömrəli tam orta məktəbi təmsil edən "Zəfər yolu" komandası II yerdə, Bankə qəsəbə S.Vurğun adına 2 nömrəli tam orta məktəbi təmsil edən "Turan" komandası isə III uğur qazanıblar. Sonda Qalib komandalar kubok, diplom, medal və müxtəlif hədiyyələrlə təltif olunublar.

# “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası



**Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq Komissiyasının təşkilatçılığı ilə 25 noyabr - Qadınlara qarşı zorakılığın ləğv olunması uğrunda beynəlxalq mübarizə günündən başlanılan və 10 dekabr – Beynəlxalq İnsan Hüquqları gününədək davam etdirilən “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində yekun görüş Neftçala Rayon Heydər Əliyev Mərkəzində rayonun ictimai-siyasi həyatında fəallığı ilə seçilən qadınların iştirakı ilə baş tutdu.**



**Tədbirə başlamazdan öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda qəhrəmancasına həlak olmuş Şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.**

**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında “Gender əsaslı zorakılıq və uşaqlara qarşı zorakılıq üzrə monitorinq Komissiyası”nın katibi Gövhər Məmmədova və mövzu ətrafında çıxış edən digər iştirakçılar dünyada ilk dəfə olaraq hər bir insanın bərabərlik və ləyaqət hüququnu bəyan edən, hər kəsin doğulduğu andan toxunulmaz və ayrılmaz hüquq və azadlıqlara malik olduğunu müəyyənləşdirən bu sənədin, dövlətlərin insan hüquqlarının müdafiəsi məsələsinə münasibətinin müsbət mənada dəyişdirən bu günün əhəmiyyətindən bəhs ediblər. İnsan hüquqlarının təbliği və müdafiəsi sahəsində əldə olunan mühüm nailiyyətləri vurğulamaq, eyni zamanda mövcud problemləri və çağırışları diqqətə çatdırmaq məqsədinə xidmət edən belə bir əlamətdar günün dünya miqyasında hər il keçirilməsi, həm də bu sahədə qarşıda duran həlledici vəzifələri gündəmə gətirmək üçün bir fürsət yaradır. Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə bu sahədə - insan hüquqlarını təbliğ edən aktual mövzulara həsr olunan müxtəlif tədbirlər, dəyirmi masalar, təlimlər, seminarlar, sərgilər və digər tədbirlər təşkil edilərək maarifləndirmə, təbliğat işi genişləndirilmişdir.**

**Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq Komissiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020 - 2023-cü illər üçün “Milli Fəaliyyət Planı”nın 12.2.1. bəndinə müvafiq olaraq rayon ərazisində “Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyası çərçivəsində müntəzəm olaraq görüşlər və tədbirlərin təşkili davam etdirilir. Tədbirin sonunda iştirakçılara bukletlər paylanıldı və "Zorakılığın hər bir növünə qarşı birgəyox deyək!" soloqanı səsləndirildi.**

# “GƏNCLƏRİN MƏNƏVİYYATINA TƏSİR EDƏN AMİLLƏR”





Dekabrın 19-da Neftçala Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan regional bölməsinin birgə təşkilatçılığı ilə Neftçala Peşə Məktəbi Publik Hüquqi Şəxsində “Gənclərin mənəvi dünyagörüşünə təsir edən amillər” mövzusuna həsr edilmiş tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbənin müdiri Sənan Xəlilov, Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Vasif Əliyev və Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsnü Həsənov, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Tədbirdə xalqımızın Umummilli lideri, Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxışlar zamanı milli vətənpərvərlik ruhu aşılayan mənəvi dəyərlərimizin gənclərin formalaşmasındakı önəmindən bəhs edilib. Məktəblilərin dünyagörüşünə, mənəvi inkişafına mənfi təsir göstərən amillərin, dini radikalizm, erkən nikah və narkomaniyanın gənclərimizin gələcəyi üçün real təhlükə yarada biləcəyi vurğulanıb. Gənc nəslin bəşəri dəyərlərə hörmətlə yanaşmasında, mənəviyyatlı, dünyagörüşlü, vətənpərvər gənclər olaraq yetişməsində ailənin, məktəbin və ictimaiyyətin danılmaz rolu olduğu qeyd edilib. O da bildirilib ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsində böyük zəhməti olan gənc nəslin yetişdirilməsində məhz yuxarıda qeyd olunan amillər əsaslı rol oynayıb. Bu sahə üzrə dövlətin həyata keçirdiyi gənclər siyasətinin əhəmiyyətindən və uğurlarından da danışılıb.

Tədbirin sonunda mövzu ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb və gənclərlə xatirə şəkilləri çəkilib.

## *“MƏNİM ÖMÜR GÜNƏŞİM” KİTABININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLDİ*




14 dekabr 2024-cü ildə Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayon Mərkəzi kitabxanasında Azərbaycan Yazıçılar Birliyinin üzvü, Neftçala rayon “Gündoğar” qəzetinin baş redaktoru, Şirvan-Salyan Regional Mədəniyyət İdarəsi Neftçala rayon Mərkəzi kitabxanasının “Metodika və biblioqrafiya” şöbəsinin müdiri, yazıçı-publisist Bədirə Rza Həsənqızının həyatdan nakam köçən gənc həkim, rəssam, Qəmbər Dilavər oğlu Əlizadənin əziz xatirəsinə həsr etdiyi **“Mənim ömür günəşim”** adlı xatirə kitabının təqdimat mərasimi keçirilmişdir.

Tədbirdə Qəmbər Əlizadənin ailəsi, doğmaları, şəhid ailələri, müəllimlər, həkimlər, mədəniyyət işçiləri, kitabxananın oxucuları iştirak etmişdir.

ŞƏRQ-QƏRB nəşriyyatında nəfis tərtibatla çap edilmiş “Mənim ömür günəşim” kitabı memuar, xatirə ədəbiyyatını sevən oxucular üçün də çox maraqla qarşılanacaq, inanırıq ki, sevilərək izləniləcək, oxunacaqdır.

Kitabda müəllifin Qəmbər Əlizadəyə həsr etdiyi şeirlər, esse və məqalələr ilə yanaşı, həmçinin Qəmbər Əlizadəni sevənlərin - müəllimlərinin, dostlarının, doğmalarının xatirələri də verilmiş, onların könül duyğuları ilə gənc ömrün həyat yolunun az, lakin işıqlı anları sevə-sevə xatırlanmışdır.

## “Erkən nikah və qohum evliliklərinin fəsadları”, “Gənclərin fiziki aktivliyinin təmin olunması, zərərli vərdişlərlə mübarizə” mövzularında maarifləndirmə tədbiri keçirilib





Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın təşkilatçılığı və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayonu üzrə təhsil sektorunun dəstəyi ilə 18 dekabr 2024-cü il tarixində Neftçala şəhər S.İmanov adına 1 nömrəli tam orta məktəbdə “Erkən nikah və qohum evliliklərinin fəsadları”, “Gənclərin fiziki aktivliyinin təmin olunması, zərərli vərdişlərlə mübarizə” mövzularında maarifləndirmə tədbiri keçirilib.

Tədbir xalqımızın ümummilli lideri, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya qurluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın məsul əməkdaşları, Neftçala şəhər S.İmanov adına 1 nömrəli tam orta məktəbin direktoru, müəllimlər, psixoloqlar, şagirdlər, valideynlər iştirak edib.

Çıxışçılar Neftçala Rayon İcra Hakimiyyəti başçısı yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın sosial problem olan erkən nikahla və qohum nikahlarla mübarizə ilə əlaqədar həyata keçirdiyi tədbirlər barədə, qanunvericilikdə nikah yaşı, nikah hüququ, erkən nikahın fəsadları, erkən nikaha məcbur edilən qızların gələcək ailə həyatlarında yaranan problemlər, onların fiziki və psixoloji vəziyyətlərinə göstərdiyi mənfi təsirlər, qohum evliliklərin səbəbləri, fəsadları, səbəb olduğu genetik xəstəliklər barədə geniş məlumat veriblər.

Qeyd olunanlardan əlavə, həmçinin fiziki aktivliyin və sağlam həyat tərzinin əhəmiyyəti, yeniyetmə orqanizmi üçün vacibliyi vurğulanıb, passiv həyat tərzi ucbatından yaranan xəstəliklər, onların risk amillərindən bəhs edilib, zərərli vərdişlərin fəsadları və insan sağlamlığına göstərdiyi mənfi təsirlər barədə iştirakçılara geniş məlumat verilib.

Tədbir qarşılıqlı müzakirələrlə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## 2025/2026-cı tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” və “informasiya təhlükəsizliyi” ixtisasları üzrə əyani təhsilə kursantların qəbuluna dair

## E L A N

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası (III qrup) üzrə əyani təhsilə 500, “informasiya təhlükəsizliyi” ixtisası (I qrup) üzrə isə 25 kursantın qəbulu üçün müsabiqə elan edir.
Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda və həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində (11-ci sinifdə) oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək olan (2025-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2025-ci ilin yanvar, aprel və iyul tarixlərində həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2024-cü il dekabr ayının 16-dan 2025-ci il fevral ayının 23-dək bazar günləri istisna olmaqla hər gün saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyatda olduğu inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcəkdir.
Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:
– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);
– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);
– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;
– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);
– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;
– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).
**Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 8880 qaynar xətti, (012) 454-12-78, (012) 590-97-76, (012) 590-99-47.**

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.
Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 10 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 8 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, Nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Tibb İdarəsinin Xüsusi həkim komissiyasında müayinə olunub “Polis Akademiyasında təhsilə yararlı” olması barədə rəyi sənədləri toplanan polis orqanına dərhal təqdim etməlidirlər.
Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.
Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, Nazirliyin seçmə və ya həkim komissiyalarından keçə bilməyən və ya həkim komissiyasına göndəriş aldığı gündən 15 gün ərzində müvafiq rəyi təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.
Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı “hüquqşünaslıq” ixtisası (III qrup) və “informasiya təhlükəsizliyi” ixtisası (I qrup) fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.
Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.
DİM-in qərarı əsasında seçilmiş abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır. 18 yaşına çatmayan şəxslərlə müqavilə onların qanuni nümayəndələrinin – valideyninin, övladlığa götürənin və ya himayəçinin yazılı razılığı ilə bağlanılır. Bu şəxslərin Polis Akademiyasına qəbulu müqavilə bağlandıqdan sonra Akademiya rəhbərinin əmri ilə rəsmiləşdirilir və onlar daxili işlər orqanlarının əməkdaşı hesab olunurlar.
Daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilədə abituriyentlərin daxili işlər orqanlarına xidmətə könüllü daxil olması, təhsili başa vurduqdan sonra 7 (yeddi) il müddətində daxili işlər orqanlarında xidmət keçmək vəzifəsi, habelə təhsili başa vurduqdan sonra daxili işlər orqanlarında xidmət keçmək istəməyən, yaxud həmin müddətdə öz arzusu ilə daxili işlər orqanlarında xidmətdən çıxan şəxslərin Polis Akademiyasında onların hazırlanmasına çəkilmiş xərclərin əvəzini ödəmək öhdəliyi nəzərdə tutulur.
Daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilənin forması və bakalavrların hazırlanmasına çəkilmiş xərclərin hesablanması qaydası Nazirlik tərəfindən müəyyən edilir.

**Əlavə məlumat almaq istəyənlər**

**Neftçala rayon Polis Şöbəsinə**

**müraciət edə**

**məlumat almaq üçün əlaqə telefonları:**

**(0216) 3-31-49, (0216) 3-10-67,**

**(02126) 3-42-52**

## YENİ İL ŞƏNLİKLƏRİNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

**Qarşıda “Yeni il” bayramı gəlir. Yeni il şənliklərini bəzəkli yolkasız təsəvvür etmək çətindir. Hər il olduğu kimi bu il də mədəniyyət və təhsil ocaqlarında, uşaq bağçalarında, yaşayış evlərində yolkalar qurulur və onlar müxtəlif bəzək əşyaları ilə bəzədilir. Lakin bəzən yanğın təhlükəsizliyi qaydalarının pozulması bayram şənliklərində qəmginlik gətirir, uşaqların odla dəcəlliyi yeni il şənliyini acınacaqlı sonluqla bitirir. Buna görə də müəllimlərin, tərbiyəçilərin və məktəblilərin yeni il şənliklərini təşkil edərkən hansı yanğın təhlükəsizliyi tədbirləri görülməsini bilmələri zəruridir.**
**Şam ağacı qurulmuş otaqların yaxınlığındakı dəhlizlərin, foyelərin və s. ehtiyyat çıxış qapıları “Çıxış” sözü yazılmış işıqlandırıcı göstəricilərlə və tez açıla bilən cəftə ilə təmin olunmalıdır. Yolka şənliyində həddindən artıq uşaq toplandığından və çıxış yolu kifayət qədər olmadığından tıxac əmələ gəlir, uşaqlar vahimələnir və yaranmış sıxlıq zamanı uşaqlar yıxılaraq ayaq altında əzilə bilər.**
**Şam ağacı qurularkən yerə möhkəm bərkidilməli, yaxud yıxılmayan dayaq üstündə qurulmalıdır, həmçinin onun budaqları tavana və divara toxunmamalıdır. Onun işıqlandırılması isə elektrik cərəyanı ilə yalnız zavodda hazırlanmış standartlara uyğun avtomat qrilyandla olmalıdır. Elektrik qrilyandı birbaşa avtomat tərtibat vasitəsilə elektrik lövhəsinə və yaxud razetkaya qoşula bilər.**
**Yeni il şənlikləri zamanı pambıqdan, tənzifdən, kağızdan və digər tezalışan materiallardan tikilmiş paltarlar geymək olmaz. Yolkaları şamlarla işıqlandırmaq olmaz, bu olduqca təhlükəlidir. Onu oddan qoruyucu maye hopdurulmamış pambıqla bəzəmək, ondan tezalışan sellüloz, kağız və s. hazırlanmış oyuncaqlar asmaq, eləcə də bertoli duzu səpmək qadağandır.**
**Yeni il şənlikləri zamanı qığılcım səpən fişəng və digər partlayıcı oyuncaqlardan istifadə etmək təhlükəlidir. Uşaqlar bayram şənlikləri ərəfəsində odlu fişəngləri və digər partlayıcıları fikirləşmədən istənilən səmtə ata bilərlər. Həmin fişənglər müxtəlif tikililərin yanar konstruksiyalarının üzərinə düşərsə yanğın törətməklə bədbəxt hadisələrin baş verməsinə səbəb olar.**
**Yeni il şənlikləri zamanı hər bir müəllim və məktəbli yanğından mühafizə orqanlarının yaxın köməkçisi olmalı, yeni il yolkası qurulan zaman yanğın təhlükəsizliyi qaydalarının yerinə yetirilməsinə nəzarət etməli, yanğın təhlükəsizliyi ilə bağlı aşkar olunmuş qayda pozuntuları hallarının aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidirlər.**

**Yeni iliniz mübarək!**
**Yanğın hadisəsi baş verdikdə 101 və ya 112 nömrələrinə zəng etməyi unutmayın!**
**Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

**YENİ - 2025 - Cİ İLİN GƏLİŞİ MÜNASİBƏTİLƏ BÜTÜN OXUCULARIMIZI TƏBRİK EDİRİK. HƏR BİRİNİZƏ AİLƏNİZ, DOĞMALARINIZ, DOSTLARINIZLA BİRLİKDƏ XOŞBƏXTLİK, SEVGİ, SÜLH, AYDIN SƏMA, İŞLƏRİNİZDƏ VƏ ARZULARINIZDA XOŞ MÜJDƏLİ GÜNLƏR, SEVİNC DOLU ANLAR DİLƏYİRİK. ARZU EDİRİK Kİ, 2025 - Cİ İL VƏTƏNİMİZİN TARİXİNDƏ, HƏR BİR SOYDAŞIMIZIN YADDAŞINDA YALNIZ VƏ YALNIZ XOŞ XATİRƏLƏRLƏ, ƏLAMƏTDAR TARİXİ GÜNLƏRLƏ YAZILSIN! AMİN!**

## *2025-Cİ İL --"İLAN" İLİ" -- YAŞIL RƏNGİ TƏCƏSSÜM ETDİRİR. YAŞIL RƏNG HAQQINDA ASTROLOQ SƏBUHİ RƏHİMLİDƏN MARAQLI MƏLUMATLAR:*

Bildiyiniz kimi qarşıdan gələn yeni il – 2025 - ci il "İlan ili" yaşıl rəngi təcəssüm etdirir. Gəlin onun mənasını araşdıraq, folklorumuzda tutduğu yer, təsir mexanizminə nəzər salaq. Astroloq Səbuhi Rəhimli bildirir ki, yaşıl ilk oncə sağlamlıq və elastik gərginlik rəmzidir. Təbiətin və baharın rəngidir. Güvən verən rəngdir. Yaşıl yaradıcılığı artırır. Psixoloji cəhətdən bu rəng özünü iradə, inadkarlıq və daimilikdə göstərir. Yaşıl rəngi seçənlər öz fikirlərinin və məsləklərinin zəfər çalmasını istəyir. Özlərini sarsılmaz və əsas prinsiplərin daşıyıcıları hesab edirlər. Sayılıb seçilməyə, ətrafdakıların etiraz və müqavimətlərinə baxmayaraq tutduqları mövqeyin hamı tərəfindən qəbul edilməsinə çalışırlar. Bu rəngdən bir çox ruhi sarsıntıların müalicəsində, isteriya və əsəb yorğunluğunda istifadə edilir. Yaşıl rəngi sevən uşaqlar o qədər də çox deyil. Onlar özlərini atılmış hiss edirlər. Hər zaman nəvazişə ehtiyac duyurlar.

Yaşıl bir çox məna kəsb edir. Amma bunlardan ən məşhuru çoxumuzun da bildiyi həyat rəmzidir. Yaşıl həmçinin güvən, əminlik, rahatlıq rəmzidir. Ona görə də əksər bankların loqolarında ən çox seçdikləri iki rəngdən biri yaşıldır. Yataq otağı üçün də rahatlaşdırıcı bir rəngdir. Böyük otellərin mətbəxlərində divar rənginin əsasən yaşıl olduğunu çox müşahidə etmişik. Xəstəxanalar da loqo və içdizynlarında yaşılı seçir. Çünki rahatlaşdırıcı və sakitləşdirici rəngdir. Təbiəti ən çox xatırladan da elə yaşıl rəngdir. Bu rəngin üstünlük təşkil etdiyi yerlərdə insanlar daha az mədə ağrısından əziyyət çəkir. Saqqız paketlərində və tərəvəz satılan yerlərdə də yaşıl ən çox seçilən rəngdir. Yaşıl təbiətin rəngidir. İnsanlarda inam yaradır. Həmin rəngə üstünlük verən insanlar inadkardırlar. Başladıqları işi mütləq axıra çatdırırlar. Yaşıl rəngin təsiri altında qürur hissi, başqalarından üstün olma, öz gücünü duymaq, hadisələri qabaqlamaq və onları idarə edə bilmək üçün real imkanlar yaranır. Yuxuda yaşıl rəng görmək böyümək və məhsuldarlığı simvollaşdırır. Bu bir insanın həyatında yeni bir başlanğıc və müsbət inkişafı göstərir. Əslində bir çox yuxuyozanların kitablarında göstərilir ki, hər adam yuxuda yaşıl rəngi görə bilmir. Yaşıl rəngi görmək - bilmək və rifah dövrünün simvolu ola bilir. Reklam, bəzək, tekstil, moda və bəzək sahələrində ən çox istifadə edilən rənglər arasında yaşıl üstünlük təşkil edir. Göy qurşağının yeddi rəngindən biri olan yaşıl sarı və mavinin qarışığından ibarətdir. Əski türkcə yazılan mətnlərdə işlədilən yaşıl sözü VIII əsrdən etibarən işlədilir. Yaşıl təbiətlə eyniləşən bir rəng olduğundan insan psixologiyasına hər cəhətdən müsbət təsir edən rənglərdən biridir. Bu rəng bir çox sahələrdə qırmızının əksi olaraq istifadə edilir. Məsələn, nəqliyyatda qırmızı işıq dayan, yaşıl isə sərbst keçid deməkdir.

Rəqəmsal cihazlarda yaşıl işıq yandırılır və işləyir deməkdir. Qırmızı rəng cihazın söndürülmüş vəziyyətdə olduğunu göstərir. Yaşıl rəng əsasən canlanma, təravət, canlılıq, yenidən başlama və dinamikliyi təbliğ edir. Bu rəng təkcə qırmızı deyil, boz rəngin də əksi hesab olunur. Boz betonu, binaları, nəqliyyatı, izdihamı və şəhəri, yaşıl rəng isə ağacların və təbiətin rəmzidir. Yaşıl həm də gəncliyin və enerjili olmanın simvoludur. Bizə görə yaşıllıq ümumiyyətlə, sağlamlıq və bolluq baxımından çox müsbət bir məna daşıyır. Amma daha çox maraqla əlaqəlidir. Yaşıl təbii, sağlam deməkdir. Həm də uğurlarla sinonimdir. Uğurların simvolu olan yaşıl yonca buna misal ola bilər. Moda, təravət rəngini təmsil edir və yaz mövsümündə geniş istifadə olunur. Gəncliyin rəmzini təmsil etdiyi kimi meyvə və tərəvəzlər təzə olduqda bu rəngi təmsil edirlər. Yaşıl qısqanclıqla əlaqəli olsa da burjuaziyanın və təhlükəsizliyin də rəngidir. Yaşıl rəngin pisixologiyası həyat haqqında təsəvvürlərlə bağlıdır. Yenilənmə və şəfa qabiliyyətinə malikdir.

Qədim zamanlarda gəlinlərin paltarı yaşıl rəngdə olurdu. Bu təbiətin və analıq hissinin rəmzi də sayılırdı. Artıb törəyən mənasında. Hindistanda gənc qızların yaşıl rəng geyinməsi adət idi. Yaşıl rəng həm də sülh simvolu sayılır. Əgər siz yaşıl rəngi sevirsinizsə, deməli, məntiqli, emosional, fəaliyyətdə olan bir insansınız. Siz özünüzlə fəxr edən və analizə meyilli insansınız.

Əziz oxucular, nəzərinizə çatdirmaq istərdik ki, "Gündoğar" rayon qəzetinə 2025 - ci il üçün abunə xidməti davam edir. Qəzetimizə abunə olmaqla siz onun ardıcıl fəaliyyət göstərməsinə dəstək olur, mənəvi dəyərlərimizin tarixi salnaməsi olan "Gündoğar" qəzetinin davamlı çap olumasını qorumuş olursunuz. Bu istiqamətdə qəzetimizi düşünən hər bir oxucuya minnətdarıq.

"Gündoğar" Neftçala rayon qəzetinin bir nüsxəsinin qiyməti illik 40(qırx) manat hesablanmışdır.

*ABUNƏ OLMAĞA TƏLƏSİN!*




**XOŞ GƏLİRSƏN, YENİ İL!**
**MÜJDƏLƏRİN XOŞ OLSUN!**
**HƏR ELİMDƏ, OBAMDA,**
**DEYİM BÜTÜN CAHANDA-**
**İNSANLAR XOŞBƏXT OLSUN!**
**BÜRÜMƏSİN GÖYLƏRİ,**
**ATƏŞİN TÜSTÜLƏRİ...**
**QARIŞMASIN GUR SULAR**
**İNSANIN NALƏSİNƏ,**
**KÖRPƏ CƏSƏDLƏRİNƏ...**
**OLMASIN MATƏM GÜNÜ!**
**HEÇ BİR İNSAN QƏLBİNDƏ**
**SÖNMƏSİN GÜNƏŞ ODU!**
**SƏN NUR ÇİLƏ GÖYLƏRDƏN-**
**TƏZƏ İL, SEVİNC NURU!...**

**ELAN**

**Bildirilir ki, I Qarabağ döyüşlərində şəhid olan Yaşar Kərimovun anası Kərimova Şəfiqə Məhərrəm qızına verilmiş "ŞƏHİD ANASI" vəsiqəsi itmişdir. Vəsiqəni tapan şəxslərdən "Gündoğar" qəzeti redaksiyasına məlumat verməsi xahiş olunur.**

*Baş redaktor*

B.H. NİFTALİYEVA

ÜNVAN:Neftçala şəhəri, H. Əliyev prospekti 38
Telefon:(021) 26-3-44-03
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMEDİA" mətbəəsində çap olunmuşdur. Tiraj:250